# AZƏRBAYCAN CÜDO FEDERASİYASI İCTİMAİ BİRLİYİNİN NİZAMNAMƏSİ

(beşinci redaksiya)



BAKI - 2024

Azərbaycan
Cüdo
Federasiyası


**I. İzahlar** ....................................................................................................3

**II. Ümumi müddəalar**......................................................................................
Maddə 1 – ACF-in fəaliyyətinin hüquqi əsasları və prinsipləri………….…..............3
Maddə 2 – ACF-in məqsəd və vəzifələri...................................................................3
Maddə 3 – ACF-in sahibkarlıq fəaliyyəti...................................................................5
Maddə 4 – ACF-in rəsmi adı, bayrağı və loqotipi.......................................................5
Maddə 5 – ACF-in rəsmi dili.......................................................................................5

**III. ACF-in hüquqi statusu**...............................................................................
Maddə 6 – ACF hüquqi şəxs kimi...............................................................................6
Maddə 7 – ACF-in hüquqları.......................................................................................6
Maddə 8 – ACF-in öhdəlikləri .....................................................................................7
Maddə 9 – ACF-in əmlakı və maliyyə fəaliyyəti..........................................................8

**IV. Üzvlər**..........................................................................................................
Maddə 10 – Üzvlüyə qəbul...........................................................................................8
Maddə 11 – Üzvlərin hüquq və vəzifələri...................................................................10
Maddə 12 – Üzvlük statusunun itirilməsi....................................................................11
Maddə 13. Fəxri prezident və Fəxri üzv ..................................................................... 12

**V. İdarəçilik**......................................................................................................
Maddə 14 – ACF-in orqanları........................................................................................12
Maddə 15 – Konfrasın tərkibi, nümayəndələrin irəli sürülməsi, sayı və səsvermə hüququ.....................................................................................................................12
Maddə 16 – Konfransın səlahiyyətləri...........................................................................13
Maddə 17 – Konfransda sədrlik......................................................................................14
Maddə 18 – Növbəti və növbədənkənar konfrans...................................................... 14
Maddə 19 – Növbəti konfransın gündəliyi.................................................................... 14
Maddə 20 – Konfransda yetərsay və qərarlar............................................................. 15
Maddə 21 – İcraiyyə komitəsinin tərkibi, mandatların müddəti, təşkilatlanma, iclaslar, qərarlar və icraiyyə komitəsinin səlahiyyətləri.............................................................. 16
Maddə 22 – Prezidentliyə namizəd, onun vəzifələri və əvəz edilməsi .......................18
Maddə 23 İcraçı vitse-prezidentin vəzifələri...............................................................19
Maddə 24 – Audit orqanları........................................................................................ 20
Maddə 25 – Nizam-intizam orqanlarının fəaliyyəti...................................................... 20
Maddə 26 – Klub lisenziyalaşdırma orqanlarının fəaliyyəti........................................ 21
Maddə 27 – Baş katiblik, funksiyaları və səlahiyyətləri ..............................................21

**VI. Son şərtlər**..................................................................................................
Maddə 28 – Təmsilçilik və imza...................................................................................21
Maddə 29 – Maliyyə ili................................................................................................ 22
Maddə 30 – Yarışların təşkil edilməsi..........................................................................22
Maddə 31 – Media........................................................................................................22
Maddə 32 – Nizamnamədə göstərilməyən məsələlər..................................................22
Maddə 33 – Mübahisələrin həlli....................................................................................22
Maddə 34– Yenidən təşkil və ləğv olunma haqqında qərar.........................................23

# I. İzahlar

Aşağıdakı terminlər, ixtisarlar və abbreviaturalar bu Nizamnamənin mətnində istifadə olunur:

- ACF – Azərbaycan Cüdo Federasiyası İctimai Birliyi;
- BCF – Beynəlxalq Cüdo Federasiyası;
- ACB – Avropa Cüdo Birliyi;
- "Rəsmi şəxslər" - müvafiq təşkilatın rəhbərliyi və ya xüsusi səlahiyyət əsasında təşkilatı təmsil edən üzvləri, məşqçilər, assistentlər, texniki işçilər, tibbi və inzibati işçilər;
- "Komissiya və ya Komitə" - bu nizamnamə əsasında təşkil olunmuş daimi və müvəqqəti komissiyalar və komitələr;
- "Yarış qaydaları" - BCF-in qəbul etdiyi yarış qaydaları;
- "İcraiyyə Komitəsi"- ACF-in kollegial icra orqanı;
- Müvafiq tənzimləmə orqanı - Apellyasiya və Mübahisələrin Tənzimlənməsi Komitəsi;
- "Konfrans"- ACF-in ali idarəetmə orqanı.

# II. ÜMUMİ MÜDDƏALAR

## Maddə 1. ACF-İN FƏALİYYƏTİNİN HÜQUQİ ƏSASLARI VƏ PRİNSİPLƏRİ

1.1. ACF bu Nizamnamədə nəzərdə tutulan prinsiplər və ümumi maraqlar əsasında yaradılan, öz fəaliyyətinin əsas məqsədi kimi gəlir əldə etməyi nəzərdə tutmayan və əldə edilən gəliri öz üzvlərinin arasında bölməyən daimi məqsədlərlə təsis edilmiş qeyri-hökumət təşkilatıdır və Azərbaycan Respublikasının bütün ərazisini əhatə edir.

1.2. ACF öz fəaliyyətini Azərbaycan Respublikasının Konstitusiyası, "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının Qanunu, "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanunu, digər normativ hüquqi aktlar, BCF-in qaydaları və bu Nizamnamə əsasında həyata keçirir. Bununla yanaşı, ACF, ACB-nin və BCF-in üzvü olmaqla, onların nizamnamələrinə, əsasnamələrinə, qaydalarına və qərarlarına hörmət edir, həmin sənədlərin tələblərini yerinə yetirməyi öhdəsinə götürür. Bununla bərabər, ACF öz üzvlərinin də qeyd edilən sənədlərə əməl etməsini təmin edir.

1.3. ACF öz fəliyyətini bərabərlik, qanunilik, aşkarlıq, könüllülük və özünüidarəetmə prinsipləri əsasında qurur. ACF öz fəaliyyətində siyasi və dini məsələlərdə neytral mövqe tutur, siyasi, dini, cinsi, etnik, irqi və ya hər hansı bir formada ayrı-seçkiliyə yol vermir.

1.4. ACF Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində 18.12.1992-ci il tarixində 272 nömrə ilə dövlət qeydiyyatına alınmış və BCF-i öz ölkəsində təmsil etmək səlahiyyətinə malik yeganə Federasiyadır.

1.5. ACF Milli Olimpiya Komitəsinin rəyi nəzərə alınmaqla, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyində akkreditasiyadan keçdikdən sonra federasiya statusunu alır.

1.6. ACF-in müstəqil balansı, üzərində adı yazılmış möhürü, ştampı, loqosu, Azərbaycan Respublikasının banklarında hesablaşma hesabı və digər rekvizitləri vardır.

1.7. ACF-in hüquqi ünvanı: Bakı şəhəri, Olimpiya küçəsi 4.

## Maddə 2. ACF-İN MƏQSƏD VƏ VƏZİFƏLƏRİ

2.1. ACF-in əsas məqsədi cüdo idman növünün ölkə miqyasında inkişaf etdirilməsi, həmçinin bu idman növü üzrə respublika və ya beynəlxalq miqyaslı idman yarışlarının keçirilməsi, milli yığma komandaların formalaşdırılması, beynəlxalq yarışlara hazırlanmasına kömək etməkdən ibarətdir.

2.2. ACF-in məqsədləri aşağıdakılardır:

2.2.1. bütün ölkə üzrə əhalinin bütün kateqoriyaları üçün cüdo idman növünü inkişaf etdirmək;

2.2.2. cüdo üzrə məşqlərin keyfiyyətini yüksəltmək;

2.2.3. olimpiya ruhunu təşviq etmək (Olimpiya Xartiyası);

2.2.4. idmanın inkişafı sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirləri təbliğ etmək;

2.2.5. cüdo üzrə yüksək səviyyəli idmançıların hazırlıq sistemini təkmilləşdirmək;

2.2.6. cüdo üzrə mütəxəssislərin ixtisaslarının daha da artırılmasına kömək etmək;

2.2.7. Azərbaycan Respublikasının ərazisində cüdo idman növünü inkişaf etdirmək, nizamlamaq və nəzarət etmək;

2.2.8. cüdo üzrə Azərbaycanın müxtəlif yaş qrupları üzrə milli yığma komandalarının Olimpiya oyunlarına, dünya birinciliklərinə və çempionatlarına, Avropa çempionatlarına və digər beynəlxalq yarışlara, o cümlədən cüdo ilə məşğul olan idmançıların ölkədaxili yarışlara hazırlaşmasına və iştirakına kömək göstərmək;

2.2.9. öz üzvlərinin maraqlarını qorumaq;

2.2.10. əhali arasında bədən tərbiyəsinin, idmanın, xüsusilə də cüdonun inkişafı ilə bağlı hökümət, qeyri-hökumət və digər təşkilatların, o cümlədən vətəndaşların səylərinin birləşdirilməsinə kömək etmək;

2.2.11. Azərbaycan cüdosunu beynəlxalq təşkilatlarda və yarışlarda təmsil etmək;

2.2.12. əhali arasında cüdonun populyarlaşdırılması və sağlam həyat tərzi ilə bağlı təbligatını aparmaq.

2.3. ACF məqsədlərinə çatmaq üçün aşağıdakı vəzifələri həyata keçirir:

2.3.1. cüdo idman növünü Azərbaycan Respublikasında inkişaf etdirmək və təbliğ etmək, bu sahədə inkişaf istiqamətlərini və perspektivlərini müəyyən etmək, bununla bağlı müvafiq fəaliyyətləri əlaqələndirmək və koordinasiya etmək;

2.3.2. BCF-in qaydalarına uyğun olaraq kəmər dərəcələrinin və danların verilməsinə nəzarət etmək (ACF tərəfindən verilməmişsə, heç kim beynəlxalq dərəcə və ya dana iddia edə bilməz);

2.3.3. ACF-in rəhbərliyi altında fəaliyyət göstərən və cüdo ilə əlaqəsi olan idman təşkilatlarının, klublarının, cəmiyyətlərin və digər qurumların səlahiyyət dairəsini müəyyən etməklə, milli səviyyədə bütün cüdo yarışlarını keçirmək;

2.3.4. Azərbaycan Respublikasının ərazisində keçirilən cüdo idman növü üzrə bütün yoldaşlıq oyunlarına nəzarət və rəhbərlik etmək;

2.3.5. Azərbaycan Respublikasında cüdonun inkişafı ilə bağlı müvafiq normativ proqramları, metodik tövsiyələri, planları, tədris materiallarını, inkişaf strategiyasını tərtib etmək, onların icrasını təşkil etmək və bununla bağlı aidiyyəti dövlət orqanlarına təkliflər təqdim etmək;

2.3.6.Azərbaycan Respublikasının ərazisində, o cümlədən onun hüdudlarından kənarda cüdo ilə bağlı olan idman federasiyaları, assosiasiyalar, klublar və ictimai təşkilatlarla əlaqələr qurmaq və belə əlaqələri inkişaf etdirmək;

2.3.7. cüdo ilə məşğul olmaq üçün lazım olan zəruri şəraitin yaradılmasına dəstək vermək;

2.3.8. cüdo üzrə məşqçi işinin görülməsi ilə bağlı kadrların hazırlanmasına dair təşkilati işlərin görülməsinə kömək göstərmək;

2.3.9. cüdo üzrə idman klublarının, xüsusilə uşaq və gənc cüdo idman məktəblərinin inkişafı ilə bağlı, eləcə də cüdo bölmələrinin və cüdo idman məktəblərinin yaradılması ilə bağlı investisiyaların cəlb olunması istiqamətində tədbirlər həyata keçirmək;

2.3.10. müxtəlif təlim-məşq toplanışlarını, o cümlədən idman-sağlamlıq tədbirlərini, seminarları, təlimləri, məsləhətləşmələri və cüdonun inkişafı ilə bağlı olan digər tədbirləri keçirmək;

2.3.11. idman bazalarının, zallarının, obyektlərinin, qurğularının və binalarının istismarı və təmiri, rekonstruksiyası və tikintisində iştirak etmək və bu qəbildən olan işlərin görülməsini dəstəkləmək;

2.3.12. milli yığma komandaları formalaşdırmaq və cüdo idman növü üzrə beynəlxalq və digər bu kimi yarışlarda iştirakını təmin etmək;

2.3.13. idmançıların, məşqçilərin, idman sahəsində çalışan digər mütəxəssislərin sosial müdafiəsi üçün şəraitin yaradılmasında iştirak etmək, idman veteranlarının qayğısına qalmaq;

2.3.14. idman yarışlarının manipulyasiyasına qarşı mübarizə aparmaq və bununla əlaqədar normativ hüquqi aktlara uyğun olaraq müvafiq tədbirlər görmək.

2.4. ACF dövlət qeydiyyatına alındıqdan sonra 30 (otuz) gün müddətində üzvlərinin reyestrinin aparılmasını təmin edir.

2.5. ACF Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Milli Məclisinin və bələdiyyələrin seçkilərində iştirak edə bilməz.

## Maddə 3. ACF-İN SAHİBKARLIQ FƏALİYYƏTİ

3.1. ACF bu Nizamnamə ilə müəyyən olunmuş məqsədlərə çatmaq üçün, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər.

3.2. ACF sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün təsərrüfat cəmiyyətləri yarada bilər, təsərrüfat cəmiyyətlərinin fəaliyyətində iştirak edə bilər və əmlak əldə edə bilər.

3.3. Sahibkarlıq fəaliyyətindən əldə edilən gəlir ACF-in üzvləri arasında bölünə bilməz və yalnız müəyyən olunan məqsədlərə çatmaq üçün istifadə oluna bilər.

## Maddə 4. ACF-İN RƏSMİ ADI, BAYRAĞI VƏ LOQOTİPİ

4.1. Federasiyanın rəsmi adı “Azərbaycan Cüdo Federasiyası” İctimai Birliyidir, qısaldılmış rəsmi adı ACF-dir.

4.2. ACF-in bayrağı, üzərində ACF-in loqotipi olan ağ lövhədən ibarətdir.

4.3. ACF-in loqotipi, latın əlifbasının böyük “A” və “J” hərflərinin birləşməsindən ibarətdir.

4.4. ACF-in loqotipində “A” hərfi ingiliscə “Azerbaijan” və “J” ingiliscə “Judo” sözünü ehtiva edir.

4.5. ACF-in adı, qısaldılmış adı, bayrağı və loqotipi, qanunvericiliyə müvafiq olaraq Azərbaycan Respublikasında aidiyyəti qurumlar tərəfindən qeydiyyata alınmışdır.

## Maddə 5. ACF-NİN RƏSMİ DİLİ

5.1. ACF-in rəsmi dili Azərbaycan dilidir.

5.2. Konfransların rəsmi dili Azərbaycan dilidir.

Azərbaycan Cüdo Federasiyası

## III. ACF-İN HÜQUQİ STATUSU

### Maddə 6. ACF HÜQUQİ ŞƏXS KİMİ

6.1. ACF Azərbaycan Respublikasının müvafiq qurumlarında qeydiyyata alındığı andan Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən yaradılan və fəaliyyət göstərən hüquqi şəxs sayılır.

6.2. ACF öz adından müqavilələr (kontraktlar) bağlaya, əqli mülkiyyət hüquqları da daxil olmaqla (bunlarla məhdudlaşmamaqla), bütün qanuni obyektlər üzərində mülkiyyət hüququ əldə edə, vəzifələr daşıya, məhkəmələrdə və digər mübahisə həll edən qurumlarda iddiaçı və ya cavabdeh qismində çıxış edə, Azərbaycan Respublikasında yaradılan ictimai birliklərin malik olduğu bütün hüquqlara malik ola və öhdəlikləri daşıya bilər.

6.3. ACF, BCF-in və ACB-nin Konqreslərinə öz nümayəndələrini təyin edən yeganə orqandır.

### Maddə 7. ACF-İN HÜQUQLARI

7.1. ACF müəyyən olunmuş məqsədlərə çatmaq üçün aşağıdakı hüquqlara malikdir:

7.1.1. öz fəaliyyəti haqqında sərbəst olaraq məlumat yaymaq;

7.1.2. dövlət qurumlarında və yerli özünüidarəetmə orqanlarında, o cümlədən ictimai təşkilatlarda öz üzvlərinin qanuni maraqlarını təmsil və müdafiə etmək, aidiyyəti dövlət qurumları qarşısında fəxri adların və mükafatların verilməsi ilə bağlı vəsatətlər qaldırmaq;

7.1.3. cüdo üzrə şəhər və rayon, regional, respublika və beynəlxalq yarışları, o cümlədən çempionatları, birincilikləri, Azərbaycan Kubokunu təşkil etmək və keçirmək, onların əsasnamələrini hazırlamaq və müvafiq icra hakimiyyəti orqanı ilə birgə təsdiq etmək, qaliblərin mükafat fondunu təsis etmək;

7.1.4. cüdo üzrə müxtəlif yaş qrupları üzrə Azərbaycan milli yığma komandalarının beynəlxalq idman yarışlarına hazırlanması məqsədilə, müqavilə əsasında məşqçi heyəti, mütəxəsisləri, elmi, tibbi təminatı və digər mütəxəsisləri, o cümlədən də əcnəbiləri cəlb etmək;

7.1.5. idmançıların, hakimlərin, məşqçilərin və cüdo üzrə digər mütəxəssislərin peşəkar hazırlığı ilə bağlı proqramları hazırlamaq, təsdiq etmək və həyata keçirmək;

7.1.6. Bu Nizamnamə ilə müəyyən olunmuş məqsədlərə çatmaq üçün, büdcə təşkilatlarından, o cümlədən qanunla müəyyən olunmuş digər mənbələrdən vəsaitlər qəbul etmək;

7.1.7. idman yarışlarının işıqlandırılması ilə bağlı hüquqların üçüncü şəxslərə ötürülməsini həyata keçirmək;

7.1.8. qanunla müəyyən olunmuş istənilən növ mülki-hüquqi xarakterli müqavilələri bağlamaq;

7.1.9. müstəqil olaraq öz daxili strukturunu, onun formasını və fəaliyyət metodunu, maliyyə planını və ştatını müəyyən etmək;

7.1.10. fəaliyyəti ilə bağlı əmək və xidmət müqavilələrini bağlamaq;

7.1.11. banklarda hesablar açmaq və hesablaşmalar aparmaq;

7.1.12. müstəqil balansa, möhürə, ştampa və digər rekvizitlərə malik olmaq;

7.1.13. qanunvericiliklə qadağan edilməyən və nizamnamə məqsədlərinə uyğun olan sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq;

7.1.14. cüdo klublarının reyestrini formalaşdırmaq, yarışların keçirilməsi və təlim-məşq toplanışlarının təşkil olunması məqsədilə klubların mövcud maddi-texniki bazasının monitorinqini həyata keçirmək;

7.1.15. ACF-in fəaliyyəti ilə bağlı müxtəlif məsələlərin həll olunması üçün əcnəbi mütəxəssislərin qəbul edilməsi və federasiyanın üzvlərinin, yəni idmançıların, məşqçilərin, idman hakimlərinin və cüdo üzrə digər mütəxəssislərin ölkə hüdudlarından xaricə göndərmək;

7.1.16. "Lotereyalar haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərinə uyğun olaraq stimullaşdırıcı lotereya keçirmək;

7.1.17. bu Nizamnamənin və ACF-in digər daxili normativ sənədlərinin tələblərini pozmuş, eləcə də qeyd olunan sənədlərdə müəyyən olunmuş tələbləri icra etməyən şəxsin ACF tərəfindən keçirilən tədbirlərdə iştirakına məhdudiyyətlər tətbiq etmək;

7.1.18. ACF-in üzvü olan cüdo klublarına öz imkanları çərçivəsində maliyyə, təşkilati, konsultativ, metodik və digər formada köməklik göstərmək;

7.1.19. öz səlahiyyətləri çərçivəsində bədən tərbiyəsi və idman sahəsində normativ hüquqi aktların və cüdo idman növünün inkişafı proqramının işlənib hazırlanmasında və həyata keçməsində iştirak etmək;

7.1.20. Azərbaycan Respublikasının ərazisində cüdo üzrə idman komplekslərinin tikintisinə dair təkliflər vermək və müvafiq komplekslərin tikintisi məqsədilə öz səlahiyyətləri çərçivəsində tədbirlər görmək;

7.1.21. müxtəlif kurslar və seminarlar, dəyirmi masa və görüşlər, sərgilər təşkil etmək;

7.1.22. Azərbaycan Respublikasının ərazisində öz struktur bölmələrini təsis etmək, filial və nümayəndəliklərini açmaq, qanunvericiliyə uyğun olaraq ACF-in məqsədlərini həyata keçirmək üçün təsərrüfat cəmiyyətləri təsis etmək və ya onlarda iştirak etmək;

7.1.23. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş digər hüquqlardan istifadə etmək.

## Maddə 8. ACF-İN ÖHDƏLİKLƏRİ

8.1. ACF-in öhdəlikləri aşağıdakılardır:

8.1.1. Azərbaycan Respublikasının qanunvericiliyində və bu Nizamnamədə müəyyən olunan normalara, o cümlədən öz fəaliyyəti ilə bağlı olan beynəlxalq hüququn norma və prinsiplərinə riayət etmək;

8.1.2. fəaliyyəti ilə bağlı qanunvericiliklə müəyyən olunan hesabatları aidiyyəti dövlət qurumlarına təqdim etmək;

8.1.3. Azərbaycan Respublikasının ərazisində keçirilən istənilən növ yarışlarda idmançıların dopinq nəzarətinin həyata keçirilməsi ilə bağlı müvafiq tədbirlər görmək;

8.1.4. əldə olunan vəsaitləri bu Nizamnamə ilə müəyyən olunan məqsədlərə xərcləmək;

8.1.5. üzvülüyə qəbul ilə bağlı və illik üzvlük haqlarının toplanmasını təmin etmək və həmin vəsaitin təsdiq olunmuş büdcə əsasında Nizamnamə məqsədlərinə xərcləmək;

8.1.6. qanunvericiliklə nəzərdə tutulan digər öhdəlikləri icra etmək.

8.2. ACF hər il sentyabrın 30-da rəsmi BCF-in formasından istifadə etməklə üzvlərinin, klublarının və qara kəmər sahiblərinin sayı barədə BCF-in Baş Katibliyinə hesabat verir və hər dəfə öz Nizamnaməsinə edilən hər hansı düzəliş və ya İcraiyyə Komitəsinin üzvlərinin siyahısına edilən dəyişikliklər barədə BCF-in Baş Katibliyinə məlumat verir.

## Maddə 9. ACF-İN ƏMLAKI VƏ MALİYYƏ FƏALİYYƏTİ

9.1. ACF-in mülkiyyətində binalar, qurğular, mənzillər, avadanlıqlar, inventarlar, pul vəsaitləri, səhmlər, digər qiymətli kağızlar və bu Nizamnamə ilə nəzərdə tutulmuş fəaliyyətin maddi təminatı üçün qanunvericiliklə qadağan olunmamış digər növlərdə əmlak ola bilər.

9.2. ACF öz öhdəliklərinə görə əmlakı ilə cavabdehdir. Bu əmlak yalnız Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq özgəninkiləşdirilə bilər.

9.3. ACF-in əmlakının pul və digər şəkildə formalaşdırılması mənbələri aşağıdakılardır:

9.3.1. təsisçilərin və ya Birlik üzvlərinin müntəzəm və ya birdəfəlik üzvlük haqları;

9.3.2. idarə, müəssisə, yerli təşkilatların və vətəndaşların könüllü verdikləri əmlak haqları və ianələri;

9.3.3. səhmlər, istiqrazlar, başqa qiymətli kağız və əmanətlərdən alınan dividendlər, gəlirlər;

9.3.4. öz əmlakından istifadə və onun satılması nəticəsində əldə edilən gəlirlər;

9.3.5. qrantlar;

9.3.6. sərgilərdən, konsertlərdən, yarışlardan və digər tədbirlərdən əldə olunan gəlirlər;

9.3.7. təsis etdiyi müəssisələrin fəaliyyəti nəticəsində əldə olunan gəlirlər;

9.3.8. dövlət tərəfindən idmanın inkişafına ayrılan vəsaitlər;

9.3.9. teletranslyasiyalardan, reklam xidmətlərindən əldə olunan və marketinq hüququndan yaranan gəlirlər;

9.3.10. idman və digər tədbirlərdən əldə edilən gəlirlər;

9.3.11. sahibkarlıq fəaliyyətinin həyata keçirilməsindən əldə olunan gəlirlər;

9.3.12. təsis etdiyi hüquqi şəxslərin fəaliyyəti nəticəsində əldə olunan gəlirlər;

9.3.13. qanunvericilikdə qadağan olunmamış digər mənbələrdən daxil olan vəsaitlər.

9.4. ACF-in üzvləri onun mülkiyyətinə daxil olan ayrı-ayrı obyektlər üzərində xüsusi hüquqlara malik deyildir.

9.5. ACF Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydada öz fəaliyyətinin məqsədlərinə və əmlakın təyinatına müvafiq olaraq öz əmlakı üzərində sahiblik, istifadə və sərəncam hüququna malikdir.

9.6. ACF-in hesabına daxil olmuş məqsədli vəsait başqa istiqamətlərdə xərclənə bilməz.

9.7. ACF siyasi partiyalara maliyyə və başqa maddi yardım göstərə bilməz.

9.8. ACF qanunvericiliklə müəyyən edilmiş qaydada maliyyə, statistik və sair hesabatlar tərtib edir və dövlət orqanlarına təqdim edir.

9.10. ACF-in xərcləri aşağıdakılardır:

9.10.1. büdcədən müəyyənləşən xərclər;

9.10.2. Konfrans, İcraiyyə Komitəsi, Prezident və ya İcraçı vitse-prezident tərəfindən təsdiqlənən xərclər və onların fəaliyyəti nəticəsində əmələ gələn xərclər;

9.10.3. ACF-in vəzifələrinə uyğun olan xərclər;

9.10.4. qanunla yol verilən digər xərclər.

## IV. ÜZVLƏR

### Maddə 10. ÜZVLÜYƏ QƏBUL

10.1. ACF-in üzvləri Konfrans tərəfindən təsdiqlənən idman təşkilatlarıdır. İdman təşkilatları bir və ya bir neçə kateqoriyada (kişi, qadın, gənclər və s.) təşkil olunan və mütəşəkkil cüdo ilə məşğul olan idmançıların daxil olduğu müstəqil təşkilatlardır. İdman təşkilatları hüquqi şəxsdir və ACF-in rəhbərliyi altında fəaliyyət göstərirlər. Onlar cüdo ilə bağlı olan öz nizamnamələrini, əsasnamələrini və onlara edilən dəyişiklik və əlavələri ACF ilə razılaşdırırlar.

10.2. ACF-ə üzv olmaq üçün hər bir müraciət aşağıdakılar barədə sənəd və məlumatlarla müşayiət olunmalıdır:

10.2.1. ACF-ə üzv olmaq məqsədinin izah edilməsi və əsas ofisin Azərbaycan Respublikasının ərazisində yerləşməsi;

10.2.2. müraciət edənin hüquqi vəziyyəti xarici təsirlərə məruz qalmadan üzvlük barədə müstəqil qərar qəbul etmək səlahiyyətinə malik olmasına təminat verilməsi;

10.2.3. əgər müraciət edən cüdo klubudursa, bütün rəsmi ev yarışlarının Azərbaycan Respublikasının ərazisində keçirilməsi;

10.2.4. müraciət edənin nizamnamə və qeydiyyat şəhadətnaməsinin surəti, prezident və digər rəhbər orqanlarının seçilməsi barədə səlahiyyətli orqanının qərarının surəti;

10.2.5. imza atma və üçüncü şəxslər qarşısında təmsil etmə hüququ olan rəsmi şəxslərinin siyahısı;

10.2.6. mövcud nizamnamə və direktivlərin müddəaları ilə və gələcəkdə onlara edilən dəyişikliklərlə BCF-in, ACB-nin və ACF-in üzv olduqları cüdo ilə əlaqəsi olan digər qurumların gələcəkdə çıxarılmalı olduqları qərarlarla razı olacaqlarının bildirilməsi;

10.2.7. qeyd olunan şərtlərin öz üzvləri və müqavilə əsasında münasibət qurduğu şəxslər (idmançı, məşqçi, hakim, rəsmi şəxs və s.) tərəfindən yerinə yetirilməsinin təminatı;

10.2.8. özlərinin və öz üzvlərinin cəlb olunduğu bütün idman xarakterli hüquqi mübahisələrdə Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən ACF tərəfindən yaradılan müvafiq tənzimləmə orqanının müstəsna səlahiyyətinin tanınması barədə öhdəlik;

10.2.9. cüdo idman növü üzrə yoldaşlıq yarışlarının təşkilinin və bu oyunlarda iştirakın ancaq ACF-in razılığı ilə həyata keçirilməsi barədə öhdəlik;

10.2.10. ali idarəetmə orqanının sonuncu yığıncağının protokolunun surəti.

10.3. ACF-ə üzv olmaq üçün hər bir müraciət ACF-in Baş katibliyinə yazılı surətdə təqdim olunmalıdır.

10.4. Məruzə də daxil olmaqla bütün sənədlər ACF-in Baş katibliyi tərəfindən İcraiyyə Komitəsinə təqdim edilməlidir. İcraiyyə Komitəsi təqdim olunmuş sənədlərin məzmununu və tamlığını nəzərdən keçirməli və qərar qəbul etməsi üçün yazılı surətdə Konfransa təqdimat verməlidir.

10.5. ACF-ə üzvlük müvəqqəti də ola bilər. Bu halda iddiaçı, bu Nizamnamənin bu maddəsinə uyğun olaraq, bütün sənədləri ACF-in Baş katibliyinə təqdim edir və İcraiyyə Komitəsinin qərarı ilə növbəti konfransa qədər müvəqqəti üzv statusu alır. Növbəti konfransda onun daimi üzv olub-olmaması haqqında qərar qəbul edilir. İddiaçı daimi üzvlüyə qəbul olunduğu halda, səsvermə hüququ əldə edir.

10.6. Yalnız ACF-in Konfransı üzvlüyə qəbul etmə haqqında qərar vermək hüququna malikdir.

10.7. Müraciət edən təşkilatın sənədləri bu Nizamnamə ilə ziddiyyət təşkil etmirsə, üzvlüyə qəbul edilməsinə etiraz edilə bilməz.

## Maddə 11. ÜZVLƏRİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

11.1. Üzvlərin hüquqları aşağıdakılardır:

11.1.1. ACF-in seçkili orqanlarını seçmək və həmin orqanlara seçilmək;

11.1.2. hər hansı konfransın gündəliyi ilə əvvəlcədən tanış olmaq, göstərilən vaxtda iclasa çağırılmaq, iclasda iştirak etmək və səsvermə hüququndan istifadə etmək;

11.1.3. ACF-in fəaliyyəti haqqında ACF-in rəsmi orqanlarının vasitəsilə və ya qanunla yol verilən qaydada məlumat almaq;

11.1.4. ACF-in bayrağı altında keçirilən yarışlarda iştirak etmək;

11.1.5. ACF-in müvafiq orqanlarına təklifini vermək, etirazını bildirmək və şikayət etmək;

11.1.6. ACF-in orqanlarının qərarlarından Konfransa, məhkəməyə və inzibati qaydada aidiyyəti qurumlara şikayət etmək;

11.1.7. bu Nizamnamədən, ACF-in reqlamentlərindən, qaydalarından və qərarlarından irəli gələn və Azərbaycan Respublikasının qanunları ilə qadağan edilməyən digər hüquqları həyata keçirmək;

11.1.8. ACF-in üzvü yalnız ACF-in müvafiq orqanları səlahiyyət verdikdə həmin orqanı təmsil edə və ya onun adından bəyanatla çıxış edə bilər.

11.2. ACF-in üzvlərinin vəzifələri aşağıdakılardır:

11.2.1. ACF-ə sadiq qalmaq və ACF-in maraqlarına zidd olan hərəkətlərdən yayınmaq;

11.2.2. bütün maliyyə öhdəliklərini vaxtında və lazımi qaydada icra etmək;

11.2.3. öz nizamnaməsində və idman münasibətlərini tənzimləyən hər hansı əsasnaməsində və digər sənədlərində idarəçilik, idman münasibətləri ilə bağlı olan bütün dəyişikliklər, rəsmi şəxslərin və üçüncü tərəf qarşısında təmsil etmək hüququna malik olan şəxslərin dəyişməsi haqqında ACF-ə yazılı məlumat vermək;

11.2.4. BCF, ACB, ACF və cüdo ilə əlaqəsi olan digər qurumların nizamnaməsinə, əsasnaməsinə, direktivlərinə və qərarlarına riayət etmək öhdəliyini qəbul etməyə razılıq vermək;

11.2.5. üzvlərinin və müqavilə əsasında münasibət qurduğu digər şəxslərin qeyd edilən şərtlərə əməl etməsinə təminat vermək;

11.2.6. yarış qaydalarına riayət etmək və öz üzvlərinin də bu qaydalara əməl etmələrinə təminat vermək;

11.2.7. BCF, ACB, ACF və cüdo ilə əlaqəsi olan digər qurumların nizamnaməsi, əsasnaməsi və qərarları ilə bağlı özünün və ya öz üzvlərindən birinin cəlb olunduğu arbitraj tələb edən idman xarakterli hər hansı bir mübahisənin hüquqi həllinin ACF-in müvafiq tənzimləmə orqanının səlahiyyətində olması haqqında öz nizamnamələrinə müddəa daxil etmək;

11.2.8. idmançı və rəsmi şəxslərlə bağlanmış müqavilədə arbitraj tələb edən hər hansı idman xarakterli mübahisənin həlli barədə ACF-in müvafiq tənzimləmə orqanının səlahiyyətində olması haqqında öz nizamnaməsinə müddəa daxil etmək;

11.2.9. Konfransda idarəedici orqanın və lazım olarsa, nizam-intizam orqanının üzvlərini seçmək;

11.2.10. ACF-ə üzv olmayan klublar və təşkilatlarla idman əlaqələrini saxlamaq;

11.2.11. BCF, ACB, ACF və cüdo ilə əlaqəsi olan digər qurumların nizamnaməsindən, əsasnaməsindən, direktivlərindən və qərarlarından irəli gələn bütün digər öhdəlikləri yerinə yetirmək;

11.2.12. etnik, cins, dil, din, siyasət əsasında və ya hər hansı başqa səbəbdən ölkəyə, şəxslərə və ya şəxslər qrupuna qarşı ayrı-seçkiliyə yol verilməsinə imkan verməmək;

11.2.13. sadiqlik, layiqli idman davranışları və ədalətli cüdo ruhu prinsiplərini qorumaq;

11.2.14. ACF-in Nizamnaməsi, əsasnamələri və qərarlarından irəli gələn digər tələblərə əməl etmək;

11.2.15. əgər üzv klubdursa, ACF-in keçirdiyi ölkədaxili yarışlarda iştirak etmək.

11.3. Hər hansı üzv tərəfindən yuxarıda qeyd olunan öhdəliklərin pozulması bu Nizamnamədə və ACF-in normativ sənədlərində nəzərdə tutulan sanksiyaların tətbiq olunmasına gətirib çıxara bilər.

## Maddə 12. ÜZVLÜK STATUSUNUN İTİRİLMƏSİ

12.1. Üzvlük statusunun itirilməsi və üzvlükdən müvvəqqəti kənarlaşdırılma bu Nizamnamədə nəzərdə tutulmuş əsaslarla həyata keçirilir.

12.2. ACF-in üzvü bu Nizamnamənin, əsasnamələrin, digər daxili normativ sənədlərin tələblərini və qərarlarını kobud şəkildə pozarsa, Konfrans onu 2 (iki) ildən çox olmayan müddətə üzvlükdən müvəqqəti kənarlaşdıra bilər.

12.3. Fövqəladə hallarda İcraiyyə Komitəsi bu maddənin 2-ci hissəsində göstərilən sanksiyanı tətbiq edə bilər. Belə hallarda müvəqqəti kənarlaşdırma növbəti Konfransda qərar çıxarılana qədər qüvvədə olur. Konfrans sanksiya ilə əlaqədar qərar qəbul edir. Əgər o təsdiq olunmazsa, kənarlaşdırma avtomatik olaraq ləğv olunur.

12.4. Üzvlükdən müvəqqəti kənarlaşdırılmış üzv həmin müddət üçün dərhal öz üzvlük hüquqlarını itirir.

12.5. Üzvlük statusu üzvün könüllü ərizəsi, məcburi çıxarılma və hüquqi şəxs kimi ləğv edilməsi ilə itirilir.

12.6. Üzvlük statusunun itirilməsi üzvü ACF-ə qarşı olan maliyyə öhdəliyindən azad etmir. Üzvlükdən çıxmış təşkilat bu Nizamnamə ilə ACF üzvünə verilmiş hüquqlardan məhrum edilir.

12.7. Konfransın qərarına əsasən üzvlüyünü itirən idman təşkilatının komandaları ölkədaxili yarışlardan kənarlaşdırılır.

12.8. Hər hansı üzv üzvlükdən könüllü çıxmaq üçün sifarişli məktubla ACF-in İcraçı vitse-prezidentinə müraciət etməlidir. Üzv öz istefasının qüvvəyə minməsi üçün müraciəti ACF-in Baş Katibliyinə ən azı 6 (altı) ay qabaqcadan məktub vasitəsilə təqdim edə bilər. O, üzvlükdən yalnız maliyyə ilinin sonunda çıxarıla bilər.

12.9. Konfrans aşağıdakı ciddi səbəblər əsasında təşkilatı üzvlükdən çıxara bilər:

12.9.1. bu Nizamnamənin, əsasnamələrin və qərarların tələblərini təkrar və ya kobud şəkildə pozduqda;

12.9.2. üzvlük haqqını müəyyən edilmiş vaxtdan 2 (iki) ay müddətində gecikdirdikdə;

12.9.3. ACF-in əmlakına ziyan vuran və ya ACF-in nüfuzuna xələl gətirən hərəkətlərə yol verdikdə;

12.9.4. ölkədaxili yarışlarda üzrlü səbəb olmadan iştirak etmədikdə.

12.10. Bu cür qərarın qəbul olunması üçün Konfransda səs vermək hüququna malik olan üzvlərin mütləq səs çoxluğu (50%+1) tələb olunur.

12.11. ACF-in üzvlüyündən çıxarılmış üzv bu barədə Konfransa, inzibati qaydada və ya məhkəməyə şikayət edə bilər.

12.12. Üzvün hüquqi şəxs kimi ləğv olunması onun özünün və ya məhkəmənin qərarı ilə baş verə bilər. Hər bir halda bu üzvün müvafiq reyestrdən çıxarılması üzvlük statusunun itirilməsi ilə nəticələnir.

## Maddə 13. FƏXRİ PREZİDENT VƏ FƏXRİ ÜZV

13.1. Konfrans cüdoda göstərdiyi layiqli xidmətlərə görə hər hansı şəxsə İcraiyyə Komitəsinin təklifi ilə Fəxri Prezident və ya Fəxri Üzv adları verə bilər.

13.2. Fəxri Prezident və ya Fəxri Üzv Konfransda iştirak edə bilərlər. Onlar müzakirələrə qoşula bilərlər, lakin səs vermək hüququna malik deyillər.

# IV. İDARƏÇİLİK

## Maddə 14. ACF-İN ORQANLARI

14.1. ACF-in idarəetmə orqanları aşağıdakılardır:

14.1.1. Konfrans;

14.1.2. İcraiyyə Komitəsi;

14.1.3. Prezident;

14.1.4. İcraçı vitse-prezident;

14.1.5. Nəzarət-təftiş Komitəsi;

14.1.6. Nizam-İntizam Komitəsi;

14.1.7. Lisenziyalaşdırma Komitəsi;

14.1.8. Apellyasiya və Mübahisələrin Tənzimlənməsi Komitəsi.

14.2. ACF-ə öz səlahiyyətləri daxilində Prezident və İcraçı vitse-prezident rəhbərlik edir.

14.3. Rəhbər orqanın ən azı ölkədəki cüdoçuların nisbətinə bərabər olan nisbətdə hər iki cinsdən (kişi və qadın) təşkil edilməsi tövsiyə olunur.

14.4. İcraiyyə Komitəsinin bir üzvünün və ya bu orqanın bütövlükdə xaric edilməsi məsələsi Konfransın gündəliyinə salına bilər.

14.5. Xaric olunmanın izahatı Konfransın gündəliyi ilə birlikdə üzvlərə göndərilməlidir.

14.6. Xaric edilmə məsələsi qoyulan şəxs və ya orqan özünü müdafiə üçün Konfransda söz almaq hüququna malikdir.

14.7. Xaric etmə təklifi qəbul edilərsə, Konfrans gizli səsvermə ilə müvafiq qərar qəbul edir. Bunun qəbul edilməsi üçün səs verən rəsmi nümayəndələrin mütləq səs çoxluğu (50%+1) tələb olunur.

14.8. Xaric edilən şəxs və ya orqan dərhal öz funksiyalarının icrasını dayandırır.

14.9. İcraiyyə Komitəsi Prezidentin təqdimatı əsasında müxtəlif istiqamətlər üzrə daimi və müvəqqəti (xüsusi) komitələr, Prezidentin müvafiq əmrinə əsasən isə komissiyalar yarada bilər. Komitələrin və komissiyaların hüquq və vəzifələri, səlahiyyət müddəti və dairəsi müvafiq olaraq, İcraiyyə Komitəsi və Prezident tərəfindən qəbul olunmuş qərara (əmrə) əsasən müəyyən olunur. Onlar ancaq məşvərətçi hüququna malikdirlər.

## Maddə 15. KONFRANSIN TƏRKİBİ, NÜMAYƏNDƏLƏRİN İRƏLİ SÜRÜLMƏSİ, SAYI VƏ SƏSVERMƏ HÜQUQU

15.1. Konfrans ACF-in bütün üzvlərinin dəvət olunduğu və ildə 1 (bir) dəfədən az olmayaraq çağırılan ümumi yığıncaqdır. Konfrans növbəti və ya növbədənkənar Konfrans kimi çağırıla bilər. Konfrans ACF-in ali səlahiyyətli orqanıdır.

15.2. Konfransın iş qaydası Konfrans tərəfindən təsdiq olunan reqlamentlə tənzimlənir. Yalnız Nizamnaməyə uyğun olaraq müvafiq qaydada çağırılmış Konfrans etibarlı (hüquqi qüvvəyə malik olan) qərarlar qəbul etmək səlahiyyətinə malikdir.

15.3. ACF-in Baş katibi və İcraiyyə Komitəsinin üzvləri ilə yanaşı fəxri prezidentlər və fəxri üzvlər də Konfransa məşvərətçi kimi dəvət olunurlar.

15.4. İcraiyyə Komitəsi üçüncü tərəfin Konfransda iştirakına qərar verə bilər. Üçüncü tərəfin səsvermə hüququ yoxdur və İcraiyyə Komitəsinin icazəsi ilə məsləhət verə bilər.

15.5. ACF-in üzvləri onları təmsil etmək üçün öz səlahiyyətli rəsmi nümayəndələrini təqdim edirlər.

15.6. Rəsmi nümayəndələr üzvlər tərəfindən onlara verilmiş vəkalətnamələrə malik olmalıdırlar. Lazım olduqda, bunun sübutunu da təqdim etməlidirlər.

15.7. Üzvlər iclasdan ən azı 30 (otuz) təqvim günü əvvəl, Baş katibliyə səsvermə hüququna malik olan şəxsləri göstərməklə, öz nümayəndələrinin siyahısını təqdim etməlidirlər.

15.8. ACF-in üzvü olan hər bir təşkilat, Konfransda bir səsə malik olmaqla, ən çoxu üç nümayəndə ilə təmsil oluna bilər.

15.9. ACF-in üzvü olan hər hansı klub bir mövsüm ərzində ACF-in təşkil etdiyi ölkədaxili yarışlarda iştirak etmirsə, o ölkədaxili yarışlarda iştirakını bərpa etməyincə, Konfransda səsvermə hüququndan məhrum olur.

## Maddə 16. KONFRANSIN SƏLAHİYYƏTLƏRİ

16.1. Konfransın aşağıdakı səlahiyyətləri var:

16.1.1. Nizamnaməni qəbul etmək, nizamnaməyə, habelə Konfrans tərəfindən qəbul edilən digər sənədlərə edilən dəyişiklikləri təsdiq etmək;

16.1.2. Konfransın reqlamentini təsdiq etmək və ona edilən düzəlişləri qəbul etmək;

16.1.3. əmlakının formalaşması və istifadə prinsiplərini müəyyən etmək;

16.1.4. icra orqanlarının yaradılması və onların səlahiyyətlərini vaxtından əvvəl dayandırmaq;

16.1.5. illik maliyyə hesabatını, o cümlədən əvvəlki hesabatları təsdiq etmək, gəlirlərin bölüşdürülməsini, xərclərin həcmini və mənbəyini təsdiq etmək;

16.1.6. İcraiyyə Komitəsinin fəaliyyəti haqqında hesabatı və İcraçı vitse-prezidentin hesabatını təsdiq etmək;

16.1.7. ACF-in maliyyə-təsərrüfat fəaliyyətinə dair Nəzarət-təftiş Komitəsinin hesabatlarını təsdiq etmək;

16.1.8. 4 ildən bir Prezidenti seçmək;

16.1.9. 4 ildən bir İcraiyyə Komitəsinə üzvlər seçmək və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək;

16.1.10. Prezidentin təqdimatı ilə İcraiyyə Komitəsinin üzvlərinin tərkibindən İcraçı vitse-prezidenti və vitse-prezidentləri seçmək;

16.1.11. Nəzarət-təftiş Komitəsinin üzvlərini seçmək və lazım gələrsə, onları tutduğu vəzifədən azad etmək;

16.1.12. ACF-in üzvlüyünə qəbul və ondan xaric edilmə qaydası müəyyən etmək;

16.1.13. üzvlüyə qəbul etmək, üzvlükdən müvəqqəti kənarlaşdırmaq və üzvlükdən çıxarmaq;

16.1.14. Fəxri Prezident və Fəxri üzv adlarını vermək;

16.1.14. üzvlərinin təkliflərini qəbul etmək;

16.1.15. ACF-in orqanlarının üzvlərinin hamısının və ya bir neçəsinin mandatını ləğv etmək;

16.1.16. ACF-i yenidən təşkil və ləğv etmək, eləcə də ləğvetmə balansını təsdiq etmək;

16.1.17. ACF-in başqa hüquqi şəxslərdə iştirak etmək;

16.1.18. qanunvericiliklə müəyyən edilmiş digər səlahiyyətləri həyata keçirmək.

## Maddə 17. KONFRANSDA SƏDRLİK

17.1. Konfransda sədrlik Prezident tərəfindən həyata keçirilir. Əgər Prezident yoxdursa və ya iştirak etmək qabiliyyətində deyilsə, o halda iclasa bu Nizamnamənin 22-ci maddəsinin 4-cü hissəsinə uyğun olaraq təyin olunan şəxs Konfransa sədrlik edir.

17.2. Sədr iclasın plana uyğun şəkildə aparılmasına cavabdehdir. Sədr, çıxışlar zamanı nümayəndələr və dəvət olunanlar reqlamentin pozulmasına yol verdikləri halda, onların çıxışlarını dayandıra və ya ixtisara sala bilər.

17.3. Konfransın protokolu Baş katiblik tərəfindən aparılır və Baş katib 30 (otuz) təqvim günü ərzində onu imzalayaraq üzvlərə göndərməlidir.

## Maddə 18. NÖVBƏTİ VƏ NÖVBƏDƏNKƏNAR KONFRANS

18.1. Növbəti konfranslar ildə bir dəfə olmaqla, maliyyə ilinin başa çatmasından sonra 6 (altı) ay ərzində İcraiyyə Komitəsi tərəfindən çağrılır. ACF üzvləri üçün iclasa dəvətnamə iclasdan ən azı 45 (qırx beş) təqvim günü əvvəl göndərilməlidir.

18.2. Konfransın gündəliyi İcraiyyə Komitəsi tərəfindən müəyyənləşdirilir. Gündəlik, fəaliyyət haqqında hesabat, İcraiyyə Komitəsinə aid sənədlər, xüsusilə də Prezidentin hesabatı, İcraçı vitse-prezidentin hesabatı, maliyyə hesabatı və digər lazımi sənədlər iclasdan ən azı 15 (on beş) təqvim günü əvvəl üzvlərə göndərilməlidir.

18.3. Hər üzvün gündəliyə məsələ daxil etmək üçün təklif vermək hüququ var, bir şərtlə ki, iclasdan ən azı 30 (otuz) təqvim günü əvvəl lazımi sənədlər ACF-in Baş katibinə təqdim olunsun.

18.4. İcraiyyə Komitəsi istənilən vaxtda növbədənkənar konfransı çağıra bilər.

18.5. Əgər ACF üzvlərinin ən azı üçdə biri yazılı şəkildə məqsədlərini izah etməklə ərizə ilə müraciət etsə, İcraiyyə Komitəsi ərizənin təqdim edilməsindən sonra 60 (altmış) təqvim günündən gec olmayaraq, növbədənkənar iclas çağırmalıdır. Əgər iclas çağırılmasa, ərizəni təqdim edənlər BCF-ə və ACB-yə müraciət edə, həmçinin qanunla müəyyən edilən digər hüquqlardan istifadə edə bilərlər.

18.6. Növbədənkənar Konfrans haqqında bildiriş yığıncaqdan ən azı 15 (on beş) təqvim günü əvvəl üzvlərə göndərilməlidir.

18.7. Növbədənkənar Konfransın gündəliyi və digər lazımi sənədlər Konfransdan ən azı 7 (yeddi) təqvim günü əvvəl üzvlərə göndərilməlidir.

18.8. Əgər növbədənkənar Konfrans İcraiyyə Komitəsinin təşəbbüsü ilə çağırılırsa, bu orqan gündəliyi tərtib etməlidir. Konfrans üzvlərin müraciəti əsasında çağırıldığı təqdirdə, gündəlikdə üzvlər tərəfindən qaldırılmış məsələlər öz əksini tapmalıdır.

18.9. Rəsmi nümayəndələrin dörddə üç səs çoxluğu ilə gündəlikdə dəyişiklik edilə bilər.

## Maddə 19. NÖVBƏTİ KONFRANSIN GÜNDƏLİYİ

19.1. Konfransın gündəliyinə ən azı aşağıdakı məsələlər daxil edilməlidir:

19.1.1. Prezidentin açılış nitqi;

19.1.2. Konfrans iştirakçılarının tərkibinin yoxlanılması;

19.1.3. İcraiyyə Komitəsinin İcraçı vitse-prezident tərəfindən təqdim edilən hesabatının təsdiqi;

19.1.4. əvvəlki ilin maliyyə hesabatının təsdiqi;

19.1.5. Nəzarət-təftiş Komitəsinin hesabatının təsdiqi;

19.1.6. hər hansı bir idarəetmə orqanlarına seçkilərin keçirilməsi;

19.1.7. ACF-in nizamnaməsinə və Konfrans tərəfindən qəbul edilən digər sənədlərə dəyişiklik və əlavələrlə bağlı edilən təkliflərə baxılması;

19.1.8. bu Nizamnaməyə zidd olmayan digər məsələlər.

19.2. Üzvlüyə qəbul bütün məsələlərdən sonra gündəlikdə öz əksini tapmalıdır. Üzvün müvəqqəti kənarlaşdırılması və ya çıxarılması isə bütün məsələlərdən əvvəl gündəlikdə yer almalıdır.

## Maddə 20. KONFRANSDA YETƏRSAY VƏ QƏRARLAR

20.1. Növbəti və növbədənkənar Konfrans yalnız ACF-in üzvlərinin səs vermək hüququna malik olan nümayəndələrinin mütləq çoxluğu (50%+1) Konfransda təmsil olunduqda səlahiyyətlidir.

20.2. Əgər yetərsay olmazsa, 24 (iyirmi dörd) saatdan sonra eyni yerdə və eyni gündəliklə ikinci dəfə Konfrans çağırılır. Bu ikinci Konfrans yalnız səs vermək hüququna malik olan ACF-in üzvlərinin nümayəndələrinin üçdə bir çoxluğu Konfransda təmsil olunduqda səlahiyyətlidir.

20.3. ACF-in Nizamnaməsinə dəyişikliklər və əlavələr edilməsi, Prezidentin və İcraiyyə Komitəsinin üzvlərinin seçilməsi, orqanların bir və ya bir neçə üzvünün xaric edilməsi, ACF-in yenidən təşkili və ya ləğvi, yaxud ACF-in üzvünün müvəqqəti kənarlaşdırılması və ya üzvlükdən çıxarılması haqqında qəbul edilən qərarlar yalnız səs vermək hüququna malik olan üzvlərin mütləq çoxluğu (50%+1) Konfransda təmsil olunduqda qəbul edilə bilər.

20.4. Əgər yetərsay yoxdursa, bu halda yeni Konfrans çağırılır.

20.5. Konfrans gündəlikdə olmayan heç bir məsələ barədə qərar qəbul etmir.

20.6. Hər bir Konfransdan əvvəl üzvlərin səsvermə hüquqlarının yoxlanılması həyata keçirilir. Üzvlər rəsmi nümayəndələri vasitəsilə öz səsvermə hüquqlarından istifadə edirlər. Üzvlər Konfransda ən çoxu üç nümayəndə ilə təmsil edilə bilərlər. Lakin, hər bir üzvü təmsil edən nümayəndələrdən yalnız biri bir səs hüququna malikdir. Eyni zamanda, yalnız səs hüququna malik olan nümayəndə iclasın gedişi zamanı müzakirə edilən məsələlər barədə fikir bildirə bilər.

20.7. Nizamnamədə başqa cür nəzərdə tutulmadıqda, qərarlar səs verən nümayəndələrin verdiyi səslərin mütləq çoxluğu (50%+1) ilə qəbul olunur.

20.8. ACF-in baş ofisinin dəyişdirilməsi, reqlamentə və Nizamnaməyə, Konfransın gündəliyinə edilən hər hansı düzəlişlər, ACF-in orqanın ləğvi və üzvün xaric edilməsi və ya ACF-in yenidən təşkili və ya ləğvi ilə bağlı qərarlar səs verən nümayəndələrin etibarlı şəkildə verdiyi səslərin dördə üç hissəsini tələb edir. Seçkilər yalnız gizli səsvermə yolu ilə həyata keçirilir.

20.9. Korlanmış səsvermə talonları, boş səsvermə talonları, yaxud hər hansı başqa formada səsvermədə iştirak etməmə etibarlı şəkildə verilmiş səslərə daxil edilmir.

20.10. Prezidentin və İcraiyyə Komitəsinin üzvlərinin seçilməsi ilə əlaqədar olaraq, namizədliyini irəli sürən şəxs verilmiş etibarlı səslərin mütləq çoxluğu (50%+1) ilə dəstəklənən birinci səsvermədə seçilir. Əgər seçki baş tutmazsa, onda ikinci səsvermə keçirilir və bu zaman şəxs sadə səs çoxluğunun (yəni səslərin çoxu) dəstək verilməsi ilə seçilir. İkinci səsvermədə səslərin sayı bərabər olarsa, onda üçüncü səsvermə keçirilir və bu zaman da sadə səs çoxluğunun dəstək verdiyi şəxs seçilir. Əgər üçüncü səsvermədə də səslərin sayı bərabər olarsa, onda namizədin seçkisi Baş Katib tərəfindən püşk atılması ilə müəyyən olunur.

20.11. Əgər rəsmi qaydada səs verən nümayəndələrin mütləq çoxluğu (50%+1) gizli səsvermə tələb etməzsə, qərarlar açıq səsvermə ilə qəbul olunur. Əgər namizədlərin sayı vakant vəzifələrin sayından çox olarsa, onda seçkilər gizli

səsvermə yolu ilə keçirilir. Bu cür hallarda, Konfrans başqa cür davam etmək barədə qərar qəbul edə bilər.

20.12. Seçkilərlə bağlı səsvermə istisna olmaqla, səsvermə zamanı səslərin sayı bərabər olduğu halda, sədr həlledici səsə malik olur.

20.13. Qiyabi səsverməyə yol verilmir.

20.14. ACF maraqların toqquşmasının qarşısını almaq üçün etik norma və qaydalar tətbiq etməli və idarəetmə orqanının üzvlərinin müzakirə olunan məsələdə birbaşa və ya dolayı marağı olduqda səs verə bilməyəcəyini təmin etməyi planlaşdırmalıdır.

20.15. Qəbul edilən qərarlar, əgər Konfrans ayrı bir vaxt müəyyənləşdirilməmişdirsə, yaxud bu səlahiyyəti İcraiyyə Komitəsinə həvalə etməmişdirsə, konfransdan bir gün sonra qüvvəyə minir.

20.16. Hər bir yığıncaq üçün protokol tərtib edilməlidir.

## Maddə 21. İCRAİYYƏ KOMİTƏSİNİN TƏRKİBİ, MANDATLARIN MÜDDƏTİ, TƏŞKİLATLANMA, İCLASLAR, QƏRARLAR VƏ İCRAİYYƏ KOMİTƏSİNİN SƏLAHİYYƏTLƏRİ

21.1. ACF İcraiyyə Komitəsi ən azı 5 (beş) nəfərdən ibarət olmaqla tək sayda tərkibdə seçilir: Prezident, İcraçı vitse-prezident, iki vitse-prezident və digər üzv(lər).

21.2. İcraiyyə Komitəsinə hər bir namizəd Konfransa azı 30 (otuz) gün qalmış, ACF-in ən azı bir üzvü tərəfindən təklif olunmalıdır. Namizədin yaşı 70-dən aşağı olmalı, Azərbaycan Respublikasının vətəndaşı olmalı və Azərbaycan Respublikasında daimi yaşamalıdır. Müvvəqqəti kənarlaşdırılmış üzv, üzvlükdən kənarlaşdırıldığı müddət ərzində namizəd təklif edə bilməz.

21.3. Namizədlərin siyahısı ACF-in Baş katibliyinə təqdim olunmalıdır. Namizədlərin rəsmi siyahısı Konfransın təyin edildiyi tarixdən 15 (on beş) gün öncə üzvlərə göndərilməlidir.

21.4. ACF-in üzvü üzvlük statusunu itirəndə, onun təklifi ilə İcraiyyə Komitəsinə seçilmiş şəxsin mandatı növbəti Konfransa qədər dayandırılır. Növbəti Konfransda onun mandatının qüvvədə qalıb-qalmaması haqqında qərar çıxarılır.

21.5. İcraiyyə Komitəsinin üzvü, eyni zamanda ACF-in Nəzarət-təftiş Komitəsinin, Nizam-İntizam Komitəsinin, Lisenziyalaşdırma Komitəsinin və Apellyasiya və Mübahisələrin Tənzimlənməsi Komitəsinin üzvü ola bilməz.

21.6. Prezidentin və İcraiyyə Komitəsinin üzvlərinin mandat müddəti 4 (dörd) ildir. Bu maddənin 2-ci hissəsinin tələbləri nəzərə alınmaqla, İcraiyyə Komitəsinin üzvləri (prezident, İcraçı vitse-prezident, vitse-prezident də daxil olmaqla) yenilənə bilər.

21.7. Əgər seçkili vəzifələr boşdursa, növbəti Konfransda mandatın qalan müddəti üçün həmin boş yerə seçki keçirilir.

21.8. Prezident, İcraçı vitse-prezident və vitse-prezidentlər istisna olmaqla, İcraiyyə Komitəsi öz strukturu barədə qərar verir.

21.9. İcraiyyə Komitəsinin iclasları ildə ən azı 4 (dörd) dəfə çağırılır.

21.10. İcraiyyə Komitəsinin yarıdan az olmayan üzvünün müraciəti ilə Prezident bu müraciətin edildiyi gündən 2 (iki) həftə ərzində İcraiyyə Komitəsinin iclasını çağırmalıdır. Əgər Prezident bu vaxt ərzində iclası çağırmırsa, müraciət edən şəxslərdən biri bunu edə bilər.

21.11. İcraiyyə Komitəsinin üzvləri, iclasdan ən azı 2 (iki) həftə qabaq gündəliyə salmaq istədikləri məsələləri Baş katibə təqdim edirlər. Gündəlik iclasdan ən azı 7 (yeddi) gün qabaq İcraiyyə Komitəsinin üzvlərinə göndərilməlidir.

21.12. Baş katib İcraiyyə Komitəsinin iclaslarında məsləhətçi kimi çıxış edir. İcraiyyə Komitəsinin iclasları ictimaiyyət qarşısında keçirilmir. Lakin İcraiyyə Komitəsi

iştirak etmək üçün üçüncü tərəfi dəvət edə bilər. Üçüncü tərəfin səsvermə hüququ yoxdur və İcraiyyə Komitəsinin icazəsi ilə fikrini bildirə bilər.

21.13. İcraiyyə Komitəsinin səlahiyyətləri aşağıdakılardır:

21.13.1. ACF-in işlərini idarə etmək, habelə qaydaları və prosedurları müəyyənləşdirmək;

21.13.2. ACF-in Baş katibini təyin etmək və tutduğu vəzifədən azad etmək;

21.13.3. müstəqil audit orqanını təyin etmək;

21.13.4. Nizam-İntizam Komitəsinin, Lisenziyalaşdırma Komitəsinin, Nəzarət-təftiş Komitəsinin, Apellyasiya və Mübahisələrin Tənzimlənməsi Komitəsinin əsasnamələrini təsdiq etmək və onlara əlavə və dəyişiklik etmək;

21.13.5. ACF-in və onun üzvlərinin bütün fəaliyyət sahələrinə nəzarət etmək;

21.13.6. Növbəti və növbədənkənar Konfransları hazırlamaq və çağırmaq;

21.13.7. illik büdcəni təsdiq etmək və maliyyə hesabatını hazırlayaraq Konfransa təqdim etmək;

21.13.8. üzvlük haqlarını müəyyənləşdirmək;

21.13.9. öz fəaliyyəti haqqında hesabat hazırlamaq;

21.13.10. Konfrans tərəfindən seçilən Nəzarət-təftiş Komitəsinin üzvləri istisna olmaqla, digər komitə üzvlərini, həmçinin onların sədrlərini təyin etmək və lazım gəldiyi halda, onları tutduğu vəzifədən azad etmək;

21.13.11. Komitələr üçün göstəriş və təlimatlar vermək (Nəzarət-təftiş Komitəsi istisna olmaqla);

21.13.12. ACF-in maliyyə planını təsdiq etmək və ona dəyişiklik etmək qaydasını müəyyən etmək;

21.13.13. Konfrans tərəfindən dəyişdiriləcək və qəbul ediləcək əsasnamələri hazırlamaq;

21.13.14. Konfrans tərəfindən qəbul edilən qərarların icrasına nəzarət etmək;

21.13.15. Azərbaycan cüdosunun inkişafındakı xidmətlərinə görə fəxri prezident və fəxri üzv adının verilməsi barədə Konfransa təklif vermək;

21.13.16. ACF üzvlərini və ictimaiyyəti məlumatla təmin etmək;

21.13.17. bu Nizamnamənin və ACF-in qəbul etdiyi digər qaydaların yerinə yetirilməsini təmin etmək;

21.13.18. daimi və müvəqqəti komitələr, komissiyalar və işçi qruplar yaratmaq;

21.13.19. ACF-in əmlakının formalaşdırılmasını və düzgün istifadə edilməsini təmin etmək;

21.13.20. ACF-in əmlakı barədə sərəncam vermək, bu Nizamnaməyə əsasən Federasiya adından hüquqi şəxsin hüquqlarını həyata keçirmək və öhdəliklərini icra etmək;

21.13.21. Daimi və müvəqqəti üzvün öz vəzifələrinin yerinə yetirilməsi ilə uyğun gəlməyən qeyri-münasib davranışına və ya kobud ehtiyatsızlığına görə onu növbəti iclasadək üzvlükdən müvəqqəti kənarlaşdırmaq;

21.13.22. Nizamnamə və əsasnamələrin tətbiq olunmasını təmin etmək və onların tətbiqi üçün tələb olunan icra tədbirlərini qəbul etmək;

20.13.23. ACF-in iş planını və proqramını təsdiq etmək.

20.13.24 filial və nümayəndəliklərinin yaradılması haqqında qərar qəbul etmək.

21.14. İcraiyyə Komitəsi ən azı 5 (beş) üzvü iştirak etdiyi halda səlahiyyətlidir.

21.15. İcraiyyə Komitəsi iştirak edən üzvlərin sadə səs çoxluğu ilə qərarlar qəbul edir. Səsvermə zamanı səslərin sayı bərabər olduqda Prezident həlledici səsə malik olur. İştirak etməyən üzvlər səs verə bilməzlər.

21.16. İcraiyyə Komitəsinin üzvü risk doğura bilən və ya ACF üzvünün maraqları ilə konflikt yarada bilən hallarda müzakirələrdən çıxarılmalıdır.

21.17. Səsvermədən imtina edildiyi hal istisna olunmaqla, hər bir üzv öz mövqeyini izah etməlidir.

21.18. Qəbul edilən qərarlar protokolda qeyd olunmalıdır.

21.19. İcraiyyə Komitəsi tərəfindən qəbul edilən qərarlar İcraiyyə Komitəsinin xüsusi qərarı olmadığı halda dərhal qüvvəyə minir.

21.20. Bundan əlavə, İcraiyyə Komitəsi başqa orqana həvalə edilməyən səlahiyyətləri də yerinə yetirir.

## Maddə 22. PREZİDENTLİYƏ NAMİZƏD, ONUN VƏZİFƏLƏRİ VƏ ƏVƏZ EDİLMƏSİ

22.1. Bu Nizamnamənin 21-ci maddəsinin 2-ci hissəsində nəzərdə tutulan şərtlərə əməl olunmaqla, Prezidentliyə namizəd, ACF-ə üzv olan təşkilatların biri tərəfindən irəli sürülməlidir. Fəaliyyətdə olan Prezident öz namizədliyini irəli sürə bilər. Bu halda 21-ci maddənin 2-ci və 3-cü hissələri rəhbər tutulur.

22.2. Prezidentin mandatının müddəti bu Nizamnamənin 21-ci maddəsi ilə tənzimlənir.

22.3. Prezidentin vəzifələri aşağıdakılardır:

22.3.1. ACF-i təmsil etmək;

22.3.2. İcraiyyə Komitəsinin iclaslarını çağırmaq;

22.3.3. Konfransa, həmçinin İcraiyyə Komitəsinin iclaslarına sədrlik etmək;

22.3.4. ACF-in inkişaf strategiyasını müəyyənləşdirmək;

22.3.5. ACF-in maliyyə və təsərrüfatı ilə bağlı məsələləri həll etmək;

22.3.6. Konfransın və İcraiyyə Komitəsinin iclaslarının protokollarını təsdiq etmək;

22.3.7. ACF-in Aparatının və digər struktur bölmələrinin ştat cədvəlini, habelə xərclər smetasını təsdiq etmək;

22.3.8. Bankda hesab açmaq və bağlamaq;

22.3.9. Beynəlxalq və milli idman təşkilatları ilə əlaqələr saxlamaq və onların müxtəlif orqanlarına seçilmək üçün ACF-in nümayəndələrini təklif etmək;

22.3.10. Milli komandalara baş məşqçiləri heyətini təyin etmək və tutduğu vəzifədən azad etmək;

22.3.11.Regional bölmələrin yaradılması və onların fəaliyyətinə xitam verilməsi barədə qərar qəbul etmək;

22.3.12. ACF-in orqanlarının müntəzəm və effektiv fəaliyyət göstərməsini təmin etmək, o cümlədən ümumi fəaliyyətinə nəzarət etmək, bu Nizamnamədə nəzərdə tutulan məqsədlərə nail olunmasında ona şərait yaratmaq;

22.3.13. Konfransın və İcraiyyə Komitəsinin qərarlarının yerinə yetirilməsini təmin etmək;

22.3.14. təsdiq olunmuş maliyyə planına uyğun olaraq, ACF-in pul vəsaiti barəsində sərəncam vermək;

22.3.15. ACF-in adından müqavilələr bağlamaq və digər hüquqi hərəkətləri yerinə yetirmək;

22.3.16. İcraiyyə Komitəsinin iclaslarının keçirildiyi dövrlər arasında Federasiyanın cari fəaliyyətinə rəhbərlik etmək;

22.3.17. Bu nizamnamədən irəli gələn digər hüquq və vəzifələr.

22.4. Prezident olmadığı və ya iştirak etmək imkanı olmadığı halda onun səlahiyyətləri İcraçı vitse-prezident tərəfindən icra edilir, o da olmadıqda Prezidentin vəzifələri İcraiyyə Komitəsinin qərarı ilə vitse-prezidentlərdən birinə həvalə edilir. Əgər onlar da yoxdursa və ya iştirak etmək imkanına malik deyillərsə, onda bu səlahiyyətlər İcraiyyə Komitəsinin ən çox stajı olan üzvü tərəfindən həyata keçirilir.

22.5. Prezident vaxtından əvvəl vəzifədən getdikdə, istefa verdikdə və ya hər hansı səbəbdən öz səlahiyyətlərini icra etməsi mümkün olmadıqda, növbəti Konfransadək Prezidentin bütün səlahiyyətlərini İcraçı vitse-prezident tərəfindən icra

edilir, o da olmadıqda, İcraiyyə Komitəsinin qərarı ilə vitse-prezidentlərdən birinə həvalə edilir. Bu müddət ərzində Prezidentin səlahiyyətlərini icra edən İcraçı vitse-prezident istefa verdikdə və ya hər hansı səbəbdən bu səlahiyyətləri icra etməsi mümkün olmadıqda, digər vitse-prezidentlərdən ən uzunmüddətli vitse-prezident səlahiyyətlərini icra etmiş vitse-prezident Prezidentin səlahiyyətlərini icra edir.

22.6. ACF-in Prezidenti ACF-in adından vəkalətnaməsiz fəaliyyət göstərməklə dövlət hakimiyyəti orqanları, yerli və xarici hüquqi şəxslər, idarə və təşkilatlar, eyni zamanda beynəlxalq təşkilatlarla və bununla məhdudlaşmayaraq istənilən üçüncü şəxslə münasibətdə ACF-i təmsil etmək və sənədlər imzalamaq hüququna malikdirlər.

22.7. Prezident Azərbaycan Respublikasının ərazisində və onun hüdudlarından kənarda ACF-i etibarnaməsiz istənilən idarə, müəssisə və təşkilatlarda təmsil edir.

## Maddə 23. İCRAÇI VİTSE-PREZİDENTİN VƏZİFƏLƏRİ

23.1. İcraçı vitse-prezidentin vəzifələri aşağıdakılardır:

23.1.1. ACF-in Prezidenti tərəfindən verilmiş etibarnamə əsasında ACF-i təmsil etmək;

23.1.2. Baş katibliyin və komitələrin fəaliyyətinə nəzarət etmək;

23.1.3. ACF-in müxtəlif sahələrdə fəaliyyətini tənzimləmək üçün müxtəlif qaydaları təsdiq etmək;

23.1.4. ACF-in müvafiq struktur bölmələrindən, komitələrindən və üzvlərindən məlumat və sənədlər almaq;

23.1.5. Beynəlxalq və milli idman təşkilatları ilə əlaqələr saxlamaq və onların müxtəlif orqanlarına seçilmək üçün Prezident ilə razılaşdırmaqla ACF-in nümayəndələrini təklif etmək;

23.1.6. Prezidentlə razılaşdırmaqla milli komandaların məşqçilər heyətini (baş məşqçilər istisna olmaqla) təyin etmək və tutduğu vəzifədən azad etmək;

23.1.7. Milli komandaların tibbi-texniki və digər dəstək heyətini təyin etmək və tutduğu vəzifədən azad etmək;

23.1.8. Ölkə səviyyəsində rəsmi yarışları təyin etmək, onları təşkil etmək və ləğv etmək;

23.1.9. Klubların və cüdo ilə əlaqəsi olan digər qurumların nizamnamələrini, reqlamentlərini və onlara edilən dəyişiklik və əlavələri razılaşdırmaq;

23.1.10. Əməkhaqqı fondu çərçivəsində ACF-in işçilərinin əmək haqlarını müəyyən etmək, vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini təşkil etmək;

23.1.11. Bu nizamnamədən irəli gələn digər hüquq və vəzifələr.

23.2. İcraçı vitse-prezident olmadıqda, onun səlahiyyətləri Prezident ilə razılaşdırılmaqla Baş katib tərəfindən icra olunur.

## Maddə 24. AUDİT ORQANLARI

24.1. ACF-in maliyyə təsərrüfat fəaliyyətini yoxlayan orqan Nəzarət-təftiş Komitəsi və ACF-dən asılı olmayan ixtisaslı, müstəqil, kənar audit şirkətidir. Onlar ACF-in maliyyə fəaliyyətini yoxlayır və konfransa hesabat təqdim edirlər.

24.2. Kənar audit şirkəti hər il İcraiyyə Komitəsi tərəfindən təyin olunur.

24.3. Nəzarət-təftiş Komitəsinin səlahiyyətləti aşağıdakılardır:

24.3.1. hər il ACF-in maliyyə-təsərrüfat fəaliyyətini yoxlamaq və müvafiq orqanlar tərəfindən maliyyə üzrə verilən qərarların həyata keçirilməsinə nəzarət etmək;

24.3.2. ACF-in maliyyə-təsərrüfat fəaliyyəti barədə hesabatları hazırlamaq və təsdiq olunması üçün Konfransa təqdim etmək;

24.3.3. ACF-in illik hesabatlarında və illik mühasibat hesabatında mövcüd olan məlumatların düzgünlüyünü təsdiq etmək;

24.4. Nəzarət-təftiş Komitəsinin iclası zərurət olduqda, lakin ildə 1 (bir) dəfədən az olmamaq şərtilə keçirilir. Nəzarət-təftiş Komitəsinin üzvlərinin yarısı iştirak etdikdə iclas səlahiyyətli hesab edilir.

24.5. Nəzarət-təftiş Komitəsinin rəhbəri:

24.5.1. Komitənin işini təşkil edir;

24.5.2. Komitənin iclasını çağırır və iclas protokolunun imzalayır;

24.5.3. ACF-in fəaliyyət planın həyata keçirilməsi ilə bağlı nəzarəti həyata keçirir;

24.5.4. Komitənin fəaliyyəti barədə hesabatı hazırlayaraq, ACF-in Konfransına təqdim edir.

24.6. Nəzarət-təftiş Komitəsi tərəfindən qərarlar açıq səsvermə yolu ilə iştirak edən şəxslərin sadə səs çoxluğu ilə qəbul edilir. Nəzarət-təftiş Komitəsində qəbul edilmiş qərarlar protokol ilə rəsmiləşdirilir və Nəzarət-təftiş Komitəsinin rəhbəri və katibi tərəfindən imzalanır.

## Maddə 25. NİZAM-İNTİZAM ORQANLARININ FƏALİYYƏTİ

25.1. ACF, İcraiyyə Komitəsindən asılı olmayaraq, müdafiə hüququna hörmət edən intizam orqanları yaradır. ACF-in Nizam-intizam orqanları Nizam-İntizam Komitəsi və Apellyasiya və Mübahisələrin Tənzimlənməsi Komitəsidir.

25.2. Konfransın səlahiyyətlərinə zidd olmamaqla, yuxarıda göstərilən orqanlar bu Nizamnamə ilə tənzimlənən müxtəlif nizam-intizam tədbirləri həyata keçirə bilərlər.

25.3. Nizam-intizam orqanlarının funksiyaları, səlahiyyətləri və tərkibi İcraiyyə Komitəsi tərəfindən qəbul olunmuş Əsasnaməyə əsasən tənzimlənir.

25.4. Qeyri-idman davranışları, yarış qaydalarının və ya ACF-in Nizamnaməsinin, əsasnamələrinin və digər qərarların pozulması hallarında üzvlərlə əlaqədar ACF-in hüquqi orqanları aşağıdakı nizam-intizam tədbirlərini həyata keçirə bilərlər.

25.4.1. xəbərdarlıq;

25.4.2. töhmət;

25.4.3. cərimə;

25.4.4. yarışın nəticəsini ləğv etmək;

25.4.5. mövcud yarışdan kənarlaşdırma və ya gələcək yarışlardan xaric etmək;

25.5. Xüsusi şəxslərlə əlaqədar:

25.5.1. xəbərdarlıq;

25.5.2. töhmət;

25.5.3. cərimə;

25.5.4. müəyyən və ya qeyri-müəyyən dövr üçün yarışlardan kənarlaşdırma;

25.5.5. müəyyən və ya qeyri-müəyyən dövr üçün vəzifədən kənarlaşdırma.

25.6. Vəziyyət tələb etdikdə Prezident və/və ya Baş katib müvafiq nizam-intizam tədbiri tətbiq edə bilər. Bu tədbir daha sonra nizam-intizam orqanları tərəfindən təsdiq edilə və ya ləğv edilə bilər.

25.7. İntizam qərarlarından BCF-ə və ya İdman Arbitraj Məhkəməsinə (CAS) şikayət verilə bilər.

### Maddə 26. LİSENZİYALAŞDIRMA ORQANLARININ FƏALİYYƏTİ

26.1. ACF-in lisenziyalaşdırma orqanları Lisenziyalaşdırma Komitəsi və Apellyasiya və Mübahisələrin Tənzimlənməsi Komitəsidir.

26.2. Lisenziyalaşdırma Komitəsinin funksiyası, səlahiyyətləri və tərkibi İcraiyyə Komitəsi tərəfindən qəbul edilən reqlamentlə tənzimlənir.

26.3. Klubların BCF-in və ACB-nin klub yarışlarında iştirakı ACF tərəfindən verilən lisenziyadan asılıdır.

26.4. Lisenziyalaşdırma prosesi, həmçinin klubların yerinə yetirməsi zəruri olan tələblər İcraiyyə Komitəsi tərəfindən təsdiqlənmiş milli lisenziyalaşdırma sənədində əks etdirilir.

### Maddə 27. BAŞ KATİBLİK, FUNKSİYALARI VƏ SƏLAHİYYƏTLƏRİ

27.1. Baş katiblik ACF-in daimi inzibati orqanıdır.

27.2. Baş katibliyin funksiyaları aşağıdakılardır:

27.2.1. Konfrans, komitə və idarəetmə orqanlarının iclaslarını hazırlamaq;

27.2.2. Konfransın və İcraiyyə Komitəsinin iclaslarının protokolunu tərtib etmək;

27.2.3. ACF-in kargüzarlıq işini təşkil etmək və ona nəzarət etmək;

27.2.4. ACF-in mühasibatlığını təşkil etmək;

27.2.5. İctimaiyyətlə əlaqələri təşkil etmək;

27.2.6. Cüdo sahəsi üzrə müxtəlif istiqamətli layihələrin və fəaliyyət planlarının hazırlanmasında və həyata keçirilməsində iştirak etmək, onlara dair rəy və təkliflər vermək;

27.2.7. Bu nizamnamədən irəli gələn digər hüquq və vəzifələr.

27.3. Baş katib Baş katibliyə rəhbərlik edir və Prezidentin təqdimatı ilə İcraiyyə Komitəsi tərəfindən vəzifəyə təyin edilir və vəzifədən azad edilir.

27.4. Baş katib Baş katibliyin bütün funksiyalarının yerinə yetirilməsini təmin edir və daimi və müvəqqəti komitələrin və komissiyaların işini əlaqələndirir.

27.5. Baş katib Konfransda, İcraiyyə Komitəsinin iclaslarında məsləhətçi kimi iştirak edir. İştirak edə bilmədikdə isə, özünə əvəzi müəyyənləşdirir.

27.6. Baş katib üçüncü tərəflər qarşısında ACF-in adından sənədləri imzalamaqla öhdəlik qəbul edə bilər.

## V. SON ŞƏRTLƏR

### Maddə 28. TƏMSİLÇİLİK VƏ İMZA

28.1. ACF-in Prezidenti ACF-in adından vəkalətnaməsiz fəaliyyət göstərməklə dövlət hakimiyyəti orqanları, yerli və xarici hüquqi şəxslər, idarə və təşkilatlar, eyni zamanda beynəlxalq təşkilatlarla və bununla məhdudlaşmayaraq istənilən üçüncü şəxslə münasibətdə ACF-i təmsil etmək və sənədlər imzalamaq hüququna malikdirlər.

### Maddə 29. MALİYYƏ İLİ

29.1. ACF-in maliyyə ili qeydiyyata alındığı vaxtdan başlayır və həmin ilin 31 dekabrında başa çatır. Növbəti maliyyə illəri isə 01 yanvarda başlayır və dekabr ayının 31-dək olan dövrü əhatə edir. Mühasibatlıq qəbul olunmuş hesabat prinsipləri və Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq aparılır.

29.2. Maliyyə şəffaflığının təmin edilməsi məqsədilə ACF öz mühasibatlıq hesabatını tələb olunduğu təqdirdə BCF-ə, Milli Olimpiya Komitəsinə və Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə təqdim edir.

## Maddə 30. YARIŞLARIN TƏŞKİL EDİLMƏSİ

30.1. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə razılaşdırmaqla ACF öz ərazisində cüdo idman növü üzrə ölkədaxili yarışları, o cümlədən şəhər, rayon, regional və ölkə birincilikləri və çempionatları, beynəlxalq turnirlər kimi rəsmi yarışları keçirir və müvafiq çempion və digər qalib titullarını verən yeganə Federasiya hesab olunur.

30.2. Klubların, cəmiyyətlərin və digər müvafiq şəxslərin keçirdikləri cüdo idman növü yarışları ilə ACF-in təşkil etdiyi yarışlar eyni vaxta düşməməlidir. Belə olduğu halda sonuncuya üstünlük verilir.

30.3. ACF-in Baş katibi keçirilən yarışların əsasnamələrini təsdiq edir.

## Maddə 31. MEDİA

31.1. ACF onun müvafiq səlahiyyəti altında olan bütün yarışların hər hansı audio-vizual və səs yayımı vasitəsilə canlı, sonradan və ya hissə-hissə yayımı, ötürülməsi və yayılması üzərində müstəsna hüquqlara malikdir.

31.2. İcraiyyə Komitəsi media hüquqları ilə əlaqədar xüsusi qaydaları təsdiq edir.

## Maddə 32. NİZAMNAMƏDƏ GÖSTƏRİLMƏYƏN MƏSƏLƏLƏR

32.1. Bu Nizamnamədə göstərilməyən hər hansı məsələ və ya "fors-major" halları İcraiyyə Komitəsi, Prezident və İcraçı vitse-prezident tərəfindən qanunçuluq və ədalət prinsipləri əsasında həll edilir. Cüdo yarışları zamanı hakimlər tərəfindən verilmiş qərarlar (idman xarakterli qərarlar) ilə bağlı apellyasiya şikayəti verilə bilməz.

32.2. Gələcəkdə bu Nizamnamənin müddəaları qanunvericiliklə ziddiyyət təşkil edərsə, qanunvericiliyin müddəaları tətbiq edilir.

## Maddə 33. MÜBAHİSƏLƏRİN HƏLLİ

33.1. ACF orqanlarının qəbul etdiyi idman xarakterli qərarlar haqqında adi məhkəmələrə müraciət etmək istisna edilir. Bu kimi məsələlərə baxmaq ACF tərəfindən yaradılmış müvafiq tənzimlənmə orqanının səlahiyyət dairəsindədir.

## Maddə 34. YENİDƏN TƏŞKİL VƏ LƏĞV OLUNMA HAQQINDA QƏRAR

34.1. ACF-in könüllü yenidən təşkili və ləğv olunması ilə bağlı qərar, xüsusilə bu məqsədlə çağırılmış Konfransda rəsmi nümayəndələr tərəfindən verilən səslərin dörddə üçünün üstünlüyünü tələb edir.

34.2. ACF-in fəaliyyətinə onun yenidən təşkil edilməsi (birləşmə, qoşulma, bölünmə, ayrılma, çevrilmə) və ləğv edilməsi yolları ilə xitam verilir. ACF-in fəaliyyətinə xitam verilməsi mövcud qanunvericilikdə nəzərdə tutulmuş qaydada həyata keçirilir.

34.3. ACF-in fəaliyyətinə xitam verilməsi haqqında qərara əsasən ləğvetmə komissiyası yaradılır. Bu andan ACF-in idarəçiliyi ilə əlaqədar bütün səlahiyyətlər ona keçir. Ləğvetmə komissiyası ləğvetmə balansını tərtib edir. ACF-in ləğvi zamanı büdcə ilə hesablaşmalardan və kreditorların tələbləri ödənildikdən sonra qalan əmlak

qanunvericiliklə müəyyən olunmuş qaydada Nizamnamə məqsədlərinə, bu mümkün olmadıqda isə dövlət büdcəsinə yönəldilir. ACF-in ləğvi Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və digər qanunvericilik aktlarına əsasən həyata keçirilir.